*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 oktyabr 2019-cu il № 80 (2397) Qiyməti 30 qəpik


# Prezident İlham Əliyev: MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur

*Oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış edib.*





- Hörmətli dövlət başçıları.

Səmimi qəbula və qonaqpərvərliyə görə Prezident Berdiməhəmmədova təşəkkürümü bildirmək istəyirəm.

Bizim dünənki görüşümüz Türkmənistan ilə Azərbaycan arasında münasibətlərin qardaşlıq xarakteri daşıdığını bir daha təsdiq etdi. Mən Türkmənistana keçənilki rəsmi səfərimi də səmimiyyətlə xatırlayıram. Həmin səfər müddətində mühüm məsələlərə dair geniş fikir mübadiləsi aparıldı, bizim münasibətlərimizə yeni məzmun gətirən rekord sayda, daha dəqiq desək, 21 sənəd imzalandı. Ölkənin inkişafı, Aşqabadın abadlaşdırılması işində Türkmənistan Prezidentinin şəxsi rolunu da qeyd etmək istərdim. Burada tez-tez oluram, aşkar dəyişiklikləri, sürətli inkişafı, müasir infrastrukturu görürəm. Keçən dəfə Olimpiya şəhərciyi ilə tanış oldum. Bütün bunlar göz oxşayır, vətəndaşların idmanla məşğul olmaları və ölkənin inkişafı işinə fəal töhfə vermələri üçün yaxşı imkan yaradır. Genişmiqyaslı tikinti işləri də heyranlıq doğurur. Mən bilirəm ki, Prezident hər bir layihəyə şəxsən nəzarət edir, buna görə də şəhər inkişaf edir, nadir vahid şəhərsalma ansamblı yaradılıb.

Bugünkü Zirvə Görüşünün gündəliyindəki məsələlərdən biri Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə əlaqədar dövlət başçılarının Birlik ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə müraciətidir. Ən dağıdıcı, qanlı müharibənin ön və arxa cəbhələrində xalqlarımız gələcək nəsillər üçün nümunə olan qəhrəmanlıq və igidlik göstəriblər. Faşizm üzərində ümumi Qələbəmizə Azərbaycan layiqli töhfə verib. Azərbaycanın 600 mindən çox oğlu və qızı Böyük Vətən müharibəsi cəbhələrində döyüşüb, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Müharibə illərində göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan bütün ölkəni yanacaqla təmin edib. Cəbhə üçün çox zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. Bunlar olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi. Hərbi kinoxronikada məşhur kadrlar var: Hitlerə verilən tortun üzərində alman dilində "Xəzər dənizi" sözləri yazılmış bir oyuq, həmin oyuqda "Bakı" adlı qara rəngli maye şokolad var. Hitler şokoladı qaşıqla götürür və tortun üstünə süzür, sonra svastika şəklində şokoladı götürüb "Bakı" sözü yazılan yerə qoyur. Bu kadr faşistlərin Azərbaycanın neft yataqlarını, həmçinin hamımızın bildiyi kimi, Şimali Qafqazın neft yataqlarını tutmaq planlarını vurğulayır. Əgər faşistlər Bakını tutmağa müvəffəq olsaydılar, sovet ordusu Qələbə üçün çox zəruri olan yanacaqsız qalardı, Bakı şəhəri isə havaya sovrulardı. Çünki belə fövqəladə vəziyyətdə sovet hökuməti neft quyularının düşmən əlinə keçməməsi üçün onların hamısını minalamışdı. Yəni, bu halda qurbanların sayı bəlkə yüz minlərlə olardı.

Azərbaycan elminin nümayəndələri ümumi qələbəmizə sanballı töhfə veriblər. Məsələn, böyük Azərbaycan alimi Yusif Məmmədəliyev sonradan "Molotov kokteyli" kimi məşhurlaşmış yandırıcı maye ixtira etmişdi. Bu barədə çox adam bilmir, lakin bu, həqiqətdir. Bakının zavodlarında gecə-gündüz istehsal edilən məşhur "Katyuşa" raketləri və digər silahlar düşməni dəhşətə salmışdı. Müharibədə həlak olanların xatirəsini Azərbaycanda ehtiramla yad edir, müharibə veteranlarına böyük qayğı göstərirlər. Oyuncaq, satqın, xalqa zidd, biabırçı Xalq Cəbhəsi rejiminin hakimiyyətdə olduğu 1992-1993-cü illərdə 9 May bayramı ləğv edilmişdi, müharibə veteranları isə alçaldılmağa və təhqirlərə məruz qalırdılar. Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra onun ilk qərarlarından biri 9 May - Qələbə Gününün bərpa edilməsi oldu. O vaxtdan təqvimdə qırmızı rənglə qeyd olunan bu gün qeyri-iş günüdür və milli bayram kimi qeyd edilir.

Biz dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzə təqdim edib. Həmin məruzədə deyilir: "Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb". Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir.

Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş 12 cildlik "1941-1945-ci illərin Böyük Vətən müharibəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" adlı VI cildində dərc edilmiş "Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti" adlı məqalədə deyilir: "Əks-kəşfiyyatçılar 114-cü Dromedar oberqrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı aşkar edib və həbsə alıblar. Böyük Vətən müharibəsi illərində o, Bolqarıstan ərazisində milliyyətcə erməni olan 30-dan çox agent cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə atılmasında iştirak edib. SMERŞ qrupunun əməkdaşları olan 17 təxribatçı saxlanılıb, qalanları barədə axtarış elan edilib. Njde həm də Avropanın yəhudi əhalisinə qarşı Holokostda iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur". Burada şərhə ehtiyac yoxdur. Njde həbs olundu və Vladimir həbsxanasında ömrünü başa vurdu. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada hündürlüyü 6 metrə yaxın olan heykəl qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli götürməyib. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur.

Diqqətinizə görə təşəkkür edirəm.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri: “Ali Baş Komandanın “Qarabağ Azərbaycandır və nida işarəsi” fikri Azərbaycan Ordusu qarşısında yeni tapşırıqlar qoyur”

*Oktyabrın 12-də Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəislərinin, birlik komandirlərinin iştirakı, eləcə də videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmələrin komandirləri və digər məsul zabitlərinin də cəlb olunması ilə xidməti müşavirə keçirilib.*



Müşavirədə çıxış edən Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Soçidə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı zamanı səsləndirdiyi "Qarabağ - tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" fikrinin Azərbaycan Ordusunda böyük ruh yüksəkliyi ilə qarşılandığını və ordumuz qarşısında yeni tapşırıqlar qoyduğunu xüsusi vurğulayıb. Nazir bildirib ki, bu tapşırıqlar Azərbaycan Ordusunun, xüsusilə ön xətdə yerləşən bölmələrinin döyüş qabiliyyətinin artırılması, onların daha müasir, güclü silah və hərbi texnika ilə təchizatı, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsi, işğal olunmuş torpaqların azad olunmasına yönəlmiş təlim və tədbirlərin gücləndirilmiş qaydada keçirilməsi və bu istiqamətdə bir sıra digər mühüm məsələlərin həll edilməsindən ibarətdir.

Son dövrdə cəbhə xəttində yaranmış əməliyyat şəraitini təhlil edən Müdafiə naziri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən işğal olunmuş ərazilərdə mövqelərinin möhkəmləndirilməsi məqsədilə mühəndis-istehkam işlərinin aparılması cəhdlərinin, eyni zamanda, düşmənin snayper və pilotsuz uçuş aparatlarının fəaliyyətinin sərt şəkildə qarşısının alınması məqsədilə adekvat tədbirlərin görülməsini əmr edib.

Müdafiə naziri bütün hərbi hissə və bölmələrdə silah, döyüş və xüsusi texnikanın istismarının qış mövsümünə keçirilməsi prosesinin lazımi səviyyədə aparılması və vaxtında yekunlaşdırılması, dağlıq ərazidə yerləşən bölmələrin hərtərəfli təminatı, hərbi qulluqçuların sağlamlığına xüsusi diqqət yetirilməsi, həmçinin hərbi xidmətə çağırılmış gənc əsgərlərin qəbulunun mütəşəkkil qaydada həyata keçirilməsi ilə bağlı müvafiq vəzifəli şəxslərə tapşırıqlar verib.

Müdafiə naziri döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə təlimlərin, praktiki məşğələlərin, çöl çıxışlarının səmərəliliyinin daha da artırılmasına diqqəti yönəldib. Nazir çətin və dağlıq şəraitdə yerləşən döyüş mövqelərinə aparan yolların təmir edilməsi, eləcə də yeni yolların salınması sahəsində həyata keçirilən işləri yüksək qiymətləndirərək bunların davam etdirilməsinin vacibliyini qeyd edib.

Müşavirənin sonunda Müdafiə naziri oktyabr ayının axırlarında Bakıda keçiriləcək MDB Müdafiə Nazirləri Şurasının növbəti iclasının yüksək səviyyədə təşkil edilməsi məqsədilə hazırlıq və təşkilati işlərin həyata keçirilməsi ilə bağlı müvafiq göstərişlər verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri HHQ-nin yeni RLS-in idarəetmə məntəqəsinin açılışında iştirak edib



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) şəxsi heyətinin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilir.*

Oktyabrın 15-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti ölkənin hava məkanına nəzarətin gücləndirilməsi və hava hədəflərinin vaxtında aşkar edilməsi üçün nəzərdə tutulmuş HHQ-nin ən müasir çoxməqsədli Radiolokasiya stansiyasının (RLS) idarəetmə məntəqəsinin açılışında iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, RLS-in idarəetmə məntəqəsində quraşdırılan müasir avadanlıq və texniki vasitələrin taktiki-texniki xassələri ilə maraqlanan Müdafiə nazirinə məruzə edilib ki, burada yaradılan infrastruktur döyüş tapşırıqlarının vaxtında və dəqiq yerinə yetirilməsi üçün geniş imkanlar yaradıb. Bildirilib ki, RLS həm stasionar, həm də taktiki şəraitdən asılı olaraq mobil qaydada istifadə edilə bilər.

Qeyd olunub ki, İspaniya istehsalı olan və NATO standartlarına cavab verən bu RLS Alyans ölkələrinin ordularının silahlanmasında da yer alıb.



RLS-in texniki imkanlarının nümayişi zamanı bildirilib ki, radiolokasiya vasitələri təyyarə, helikopter, pilotsuz uçuş aparatı və qanadlı raketlər kimi aerodinamik hava obyektlərinin aşkarlanması, uçuş parametrlərinin təyin edilməsi və müşayiətə götürülməsini təmin edir.



Sonra Müdafiə naziri müvafiq infrastrukturla təmin edilmiş ərazidə yerləşən qərargah, əsgər yataqxanası, yeməkxana, əşya anbarı, tibb məntəqəsi, camaşırxana, qazanxana, xidməti və inzibati otaqlar, eləcə də digər qurğu və avadanlıqlara baxış keçirib.

Məruzə olunub ki, burada yaradılan şərait şəxsi heyətin hərbi hissə qarşısında duran vəzifə və tapşırıqları daha keyfiyyətli və effektiv icra etməsinə imkan verir.

*Təlim*

# "Xalqımıza yaşadacağımız zəfər bayramını səbirsizliklə gözləyirik"

Əsgər ordunun onurğa sütunudur. Bu fikir tarix boyu danılmaz fakt olaraq öz sübutunu tapıb. Öyrəndiyi hərbi bilik və döyüş vərdişləri ilə yanaşı, Vətən sevgisi, düşmənə nifrətlə bütünləşən əsgər, döyüş meydanında zəfərin qarantıdır. Silah və texnikadan istifadə etməyi bacaran, ixtisasına uyğun hərbi bilikləri öyrənən, nizam-intizamlı olan əsgər istənilən hərbi əməliyyatı uğurla yerinə yetirməyə qadirdir. Ona görə də bu gün ordumuzda döyüş hazırlığının artırılmasına ciddi diqqət yetirilir. Əsgərlərə günün nizam qaydasına uyğun olaraq atəş hazırlığından, döyüş taktikasından və digər məşğələlərdən dərslər keçirilir. Atış çalışmalarında, təlimlərdə nəzəri biliklər sınağa çəkilir, döyüş vərdişləri aşılanır. Bu gün ordumuzun bütün birləşmələrində əsgərlərin döyüş hazırlığı yüksəkdir.

Hərbi hissələrdən birində olarkən döyüş hazırlığının artırılmasına yönəlmiş məşğələlərin yüksək səviyyədə təşkil olunmasının şahidi olduq. Keçirilən "atəş hazırlığı" dərsini izlədik.

Gizir Şamo Edilov əsgərlərə avtomatın sökülüb-yığılması, təyinatı, hissə və mexanizmləri haqqında praktik məşğələ keçirdi. O, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində mənimsədiyi bilikləri gənclərə həvəslə öyrədirdi. Dərsin gedişindən hiss olunurdu ki, gizir gənc olmasına baxmayaraq, seçdiyi peşənin sirlərinə dərindən yiyələnib. Dərsin sonunda həm onunla, həm də əsgərlərlə həmsöhbət olduq. Öyrəndik ki, Şamonun bu şərəfli peşəyə olan sevgisi, hərbçi olmaq istəyi məhz ailəsindən qaynaqlanır. Döyüşkən, Vətəninə, dövlətinə bağlı bir ailənin övladıdı Şamo.

O, 11 aprel 1994-cü ildə Ağdam rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan, Azərbaycanın Milli Qəhrəmanı Yelmar Edilovun qardaşı oğludur. Atası Şahlar kişi də müharibə veteranıdır. Şamo əmisi Yelmar Edilovdan ağız dolusu danışır. "Uşaqlığım müharibə haqqında danışılan söhbətləri dinləməklə keçib. Əmimin qəhrəmanlıqlarını, atamın döyüş xatirələrini dinlədikcə bu peşəyə sevgim yaranıb. Təkcə ailədə deyil, elə məktəbdə



və cəmiyyətdə də onun şücaətləri haqqında çox eşidirdim. Əmim və onun kimi ərazi bütövlüyümüz uğrunda canından keçən şəhidlərimiz biz gənclərin qürur mənbəyidir. Qəhrəmanlıqları həyat yolumuza nümunədir. Sevərək seçdiyim peşəyə ürəkdən bağlıyam. Əsgərləri çətinlik çəkmədən öyrədirəm. Onlar da dərsə həvəs göstərir, deyilənləri yaxşı mənimsəyirlər. Onların dərsə olan marağı məni daha da ruhlandırır."

Gizir Ş.Edilovun məşğələni izah etməsindən, silahı hər incəliyinə kimi əsgərlərə öyrətməyə can atmasından görünür ki, işinə sevgi ilə yanaşır, mənəvi zövq alır. Sözünü davam etdirən gizir dərsin mövzusundan danışdı. O, əsgərlərə avtomatın təyinatı, hissələri, zərbə-tətik mexanizmi, sökülüb-yığılma qaydası və digər bilikləri öyrədir. Dərs prosesini müşahidə edərkən gördük ki, gənclərin hər biri fəallıq göstərir, avtomatın hissələrini əzbər bilirlər.

Məşğələnin sonunda əsgərlər Fəqan Qənbərov, Emin Kərimov, Kamil Qarayev, Elxan Məmmədov və digərləri dedilər ki, qürurluyuq və sevinirik ki, Azərbaycan Ordusunun əsgərləriyik. "Keçirilən bütün məşğələlərdə fəal iştirak edir, döyüş qabiliyyətimizi hər an artırırıq. Öyrədilənlərə diqqətlə qulaq asır, verilən tapşırıqları həvəslə yerinə yetiririk. Avtomatı sərbəst sökub-yığırıq, hissə və mexanizmlərini, onların funksiyalarını yaxşı qavramışıq. Bununla yanaşı, dəqiq nişan almağı da bacarırıq. Ordumuzun hər əsgəri kimi bizim də tək məqsədimiz hərbi biliklərə və vərdişlərə dərindən yiyələnib, düşmən işğalında olan torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın döyüş əmrini gözləməkdir. Ona görə də hər birimiz nümunəvi xidmət edir, xalqımıza zəfər bayramı yaşadacağımız günü səbirsizliklə gözləyirik."

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan Ordusunda "NATO günləri" başlayıb

Azərbaycan Ordusunda "NATO günləri"nə start verilib.

NATO-nun Müttəfiq Qüvvələrin Avropadakı Ali Baş Qərargahında Tərəfdaşlıq İdarəsinin rəisi kontr-admiral Bülent Turanın rəhbərlik etdiyi nümayəndə heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyasını, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, "N" hərbi hissəsini və Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsini ziyarət edəcək.

Tədbir çərçivəsində zabit və kursant heyəti üçün "NATO bu gün və gələcəkdə", "Azərbaycan-NATO əməkdaşlığı", "NATO-nun hərbi məsələləri", "NATO-nun Əməliyyat İmkanları Konsepsiyası və Azərbaycan Ordusu" və digər mövzularda mühazirələr və təqdimatlar təqdim olunacaq.

Azərbaycan Ordusunda "NATO günləri" oktyabrın 18-dək davam edəcək.

## Əlahiddə Ümumqoşun Orduda buldozer heyətləri ilə məşğələ keçirilib

Ölkəmizə ağır texnika və yük avtomobillərinin idxalını həyata keçirən "Grand Motors" MMC-nin təlim keçmiş yüksək ixtisaslı heyəti tərəfindən hərbi hissədə məşğələ keçirilib.

Əlahiddə Ümumqoşun Ordudakı müxtəlif markalı buldozerlərin heyətləri ilə keçirilən məşğələdə əsas diqqət texnikanın istismarı qaydalarına və texniki qulluğun göstərilməsinə yönəldilib.

Məşğələ zamanı buldozer texnikalarında mühərrik yağlarından istifadə, texniki müayinə və akkumulyator batareyalarına qulluq qaydaları praktiki olaraq göstərilib.

Məşğələnin sonunda buldozerlərin heyətlərindən məqbullar götürülüb.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***15 oktyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Yusifcanlı, Füzuli rayonunun Qərvənd, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Əlahiddə Ümumqoşun Orduda silahlara nəzarət inspeksiyası keçirilib



Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrdə silahlara nəzarət inspeksiyası keçirilib.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının rəhbərlik etdiyi, Almaniya və Polşadan nümayəndələrin də qatıldığı 8 nəfərdən ibarət beynəlxalq inspeksiya qrupu tərəfindən Əlahiddə Ümumqoşun Orduda "Elan olunmuş yer"in inspeksiyası və qiymətləndirməsi aparılıb.

"Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə" çərçivəsində hərbi hissələrdə müxtəlif növ və təyinatlı silah



və texnikaların sayı yoxlanılıb, şəxsi heyətin məişət şəraiti, sağlamlığı və qidalanması ilə tanış olmaq üçün əsgəri məişət komplekslərinə baxış olub.

Səfər zamanı qonaqlar açıq səma altında Naxçıvan Döyüş Şöhrəti Muzeyində və muxtar respublikanın tarixi yerlərində olublar.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

AZƏRBAYCAN ORDUSU

# Əlahiddə Ümumqoşun Orduda komandir hazırlığı toplantısı keçirilib





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ili üçün uzlaşdırma planı"na əsasən, komandir hazırlığı toplantısı keçirilib.

Tabor, divizion komandirləri və müavinləri ilə keçirilən toplantıda əsas məqsəd zabitlərin sülh və müharibə şəraitində komandir keyfiyyətlərinin əsasını təşkil edən mənəvi-psixoloji dayanıqlığına nail olunması və bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsi olub.

Toplantıda kəşfiyyat hazırlığından maneələr zolağının dəf edilməsi, taktiki hazırlıqdan tanklarla mübarizə qaydaları və psixoloji zolağın dəf edilməsi, topoqrafiya hazırlığından ərazidə azimutla hərəkət, rabitə hazırlığından radiostansiyanın işə salınması, atəş hazırlığından müxtəlif çaplı silahlardan və tank əleyhinə vasitələrdən praktiki atışlar yerinə yetirilib.

Toplantı çərçivəsində keçirilən nümayiş məşğələdə şərti düşmənin kəşfiyyat-diversiya qrupuna qarşı mübarizə aparılması və hakim yüksəkliyin ələ keçirilməsi praktiki olaraq göstərilib.

Toplantının yekununda bildirilib ki, zabitlərin bölmələrdə taktiki təlimlərin hazırlanması, ictimai-siyasi hazırlıq məşğələlərinin keçirilməsi və hərbi intizamın möhkəmləndirilməsi üzrə nəzəri bilikləri yoxlanılıb. Məqbullar götürülən zaman tabor, divizion komandirləri və müavinləri komandir hazırlığından yüksək nəticə göstəriblər.

# Rusiya tarixçiləri və politoloqları Paşinyanın savadsız və faşizmə bəraət qazandıran çıxışını tənqid edirlər

## Njde təxribat-terror aktları törədilməsi üçün agentura məlumatları toplayan gizli nasist agenti olub

Hitler ilə əməkdaşlıq etmiş xadimə bəraət qazandırılması yolverilməzdir. Bu, mümkünsüzdür və cinayətdir. Tarixin məhkəməsi artıq öz qərarını verib: Hitler və onun havadarları cinayətkardırlar.

AZƏRTAC xəbər verir ki, Rusiya mətbuatı Nikol Paşinyanın MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilən iclasında Ermənistan baş nazirinin Qaregin Njdeyə heykəl qoyulmasına bəraət qazandıran çıxışını pisləyən materiallar yayıb. Rusiya tarixçiləri və politoloqları Ermənistan rəhbərinin savadsız və faşizmə bəraət qazandıran çıxışını tənqid atəşinə tutublar.

Rusiya Tarixi İnstitutunun baş elmi işçisi Yuri Jukovun sözlərinə görə, Hitler ilə əməkdaşlıq etmiş birinə bəraət qazandırılması yolverilməzdir. Bu, mümkünsüzdür və cinayətdir. Tarixin məhkəməsi artıq öz qərarını verib: Hitler və onun havadarları cinayətkardırlar. Ermənilər "Böyük Ermənistan" konsepsiyasının həyata keçirilməsi xəstəliyinə mübtəla olublar. "Mən heç cür anlaya bilmirəm ki, Hitlerin əlaltısını necə qəhrəman elan etmək olar!", - deyə tarixçi vurğulayıb. Onun fikrincə, Ermənistanda güclənən milliyyətçilik meyillərinin sonu yaxşı qurtarmayacaq. Bu siyasət yalnız uçuruma aparır. Ermənistan BMT Baş Assambleyasında nasizmin qəhrəmanlaşdırılması ilə mübarizəyə səs verir, sonra isə nasizm havadarlarına heykəl qoyur.

Digər tarixçi Yuri Nikiforov bildirib ki, Njde və vermaxtın erməni legionunun digər komandiri Dro kimi tanınan Drastmat Kanayan nasistlərlə əməkdaşlıq edib, ermənilərdən ibarət hərbi birləşmə yaradıb. Bu gün Ermənistanda milliyyətçilər Njdenin Hitler ilə əməkdaşlığını vətənpərvərlik kimi qələmə verirlər. Njdeyə heykəl qoyulması ictimaiyyətin gözündə ona bəraət qazandırmaq deməkdir. İnanclı insanların dili ilə desək, bu, iblislə razılığa girməkdir. İblislə oynamaq isə mənasızdır. O, istənilən halda, aldadacaq. Rusiya cəmiyyəti Njde kimi adamlara heykəl qoyulmasının tamamilə əleyhinədir. Nasizm şərdir. Şər və ona qulluq edənlər həmişə günahkardırlar.

"Nsionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko Paşinyanın Njdeyə bəraət qazandırmaq cəhdinə təəssüfləndiyini bildirib. O deyib: "Mən Paşinyana "1941-1945-ci illərin Böyük Vətən müharibəsi" 12 cildlik ensiklopediyanı oxumağı tövsiyə edərdim. Orada Rusiya xüsusi xidmət orqanlarının Njde ilə bağlı rəsmi rəyi yerləşdirilib. Ensiklopediyanın 6-cı cildində yazılıb: "114-cü abver qrupunun əks-kəşfiyyatçıları daşnak ordusunun keçmiş generalı, immiqrant, "Njde" təxəllüsü altında almanlara qulluq etmiş Ter-Arutyunyanı həbs ediblər. Böyük Vətən müharibəsi illərində o, Bolqarıstan ərazisində 30-dan çox erməni millətindən olan agenti öz tərəfinə cəlb edib, onların diversiya hazırlığında və Qızıl Ordunun arxa cəbhəsinə göndərilməsində iştirak edib. Onlardan 17 nəfəri həbs edilib, qalanları isə axtarışa verilib". Tarixçinin sözlərinə görə, müasir Rusiyada əmindirlər ki, Njde SSRİ ərazisində təxribat-terror aktları törətmək üçün terrorçular hazırlayan nasist agenti olub. Paşinyanın bu gün ona bəraət qazandırması, əməllərini ört-basdır etməsi yalnız təəssüf doğurur.

# General Səməd bəy Mehmandarovun doğum gününə həsr olunmuş tədbir keçirildi

*"N" hərbi hissəsində Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi naziri general Səməd bəy Mehmandarovun doğum gününə həsr olunmuş tədbir keçirildi.*



Tədbir iştirakçılarının diqqətinə çatdırıldı ki, Səməd bəy Mehmandarov 1855-ci il oktyabrın 16-da Lənkəranda anadan olub. "Bakıda gimnaziya təhsili alıb. 16 yaşında Peterburqda yerləşən II Konstantinovka artilleriya məktəbinə daxil olub. 1875-ci ilin dekabrında podporuçik rütbəsi alıb və üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif edilib. 1890-cı ildə kapitan, 1898-ci ildə podpolkovnik, 1901-ci ildə polkovnik, 1904-cü ildə general-mayor rütbəsi alıb. Rusiya-Yaponiya müharibəsində böyük rəşadət göstərmiş S.Mehmandarova 1908-ci ildə tam artilleriya generalı rütbəsi verilib. 1917-ci ilin əvvəlində Rusiyanın bütün hərbi ordenləri, eləcə də İngiltərə, Fransa və Rumıniyanın bir neçə hərbi ordenləri ilə təltif edilib. 1917-ci ilin fevralında burjua inqilabı baş verərkən S.Mehmandarov Qafqazda idi. Həmin ilin aprelində o, vəzifəsini həmişəlik tərk edib istefaya çıxır. Bir müddət Vladiqafqaz şəhərində yaşadıqdan sonra Azərbaycana gəlir. General S.Mehmandarovun ölkə tarixinə ən böyük töhfəsi onun Azərbaycan Xalq Cümhuriyyəti hökumətində 1918-ci ilin 25 dekabrından Hərbi nazir vəzifəsini tutması və qısa müddətdə müstəqil Azərbaycanın nizami ordusunu yaratması oldu. Müstəqil Azərbaycan dövlətinin ərazisi Rusiyanın XI Ordusu tərəfindən işğal edildikdən sonra S.Mehmandarov öz xalqının müqəddəratına biganə qalmayaraq Vətəni tərk etməmişdir. 1920-ci ilin mayında Gəncə qiyamından sonra həbs edilən S.Mehmandarov Ə.Şıxlinski ilə birlikdə Nəriman Nərimanovun köməyi sayəsində ölümdən xilas edilərək avqustun 1-də Moskvaya göndərilirlər. O, N.Nərimanovun şəxsi zəmanət məktubu əsasında, bir il Moskvada hərbi fəaliyyətini davam etdirmiş, artilleriya nizamnaməsi hazırlayan komissiyanın tərkibinə daxil edilmiş, Hərbi Akademiyada taktikadan dərs demişdir. Bir il sonra Bakıya qayıdan general burada Azərbaycan Hərbi Komandirlər Məktəbində 1921-1928-ci illərdə müəllimlik etmişdir."

Generalın dövrünün görkəmli şəxsiyyətlərindən biri olduğu, türk və fars dillərini yüksək səviyyədə bildiyi vurğulanıb. Ömrünün son üç ilində islam tarixi və fəlsəfə ilə məşğul olmuşdur.

Sonra tədbir iştirakçıları Səməd bəy Mehmandarovun həyatından bəhs edən videoçarxı izlədilər.

- General S.Mehmandarovun döyüş meydanlarında nümayiş etdirdiyi peşəkarlığı, daşıdığı mundirə hədsiz sədaqəti xalqımızın hərb tarixində silinməz izlər qoyub, - deyə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı Gülxar Məmmədova çıxışına başladı. - Xalqımızın müxtəlif vaxtlarda görkəmli sərkərdələri, qəhrəmanları olub. Qəlbi Vətən sevgisi ilə döyünən oğullarımızdan biri də Səməd bəy Mehmandarovdur. Bu gün onun doğum gününə həsr edilən tədbirdə iştirak edirik. Onun keçdiyi döyüş yolundan danışanda hər birimiz qürur hissi keçiririk. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Hərbi Nazirliyin mövcud olduğu il yarım ərzində Azərbaycan Ordusunun real qüvvəyə çevrilməsində igid sərkərdəmizin böyük əməyi vardır. Onun fəaliyyəti nəticəsində ordu quruculuğu sahəsində mühüm addımlar atılaraq, ölkənin ərazi bütövlüyünün qorunması layiqincə təşkil edilib. O, həmişə xalqının müqəddəratını şəxsi mənafeyindən üstün tutmuşdur. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün bu cür oğul və qızlarımızın qəhrəmanlıqlarının işıqlandırılması bizim üzərimizə düşən müqəddəs borcdur.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi tərəfindən hərbi hissənin şəxsi heyəti üçün hazırlanmış hərbi vətənpərvərlik mahnılarından ibarət konsert proqramı ilə başa çatdı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

*Hərbi təhsil*

# Azərbaycanda hərbi təhsilin əsası 101 il əvvəl qoyulub

*Azərbaycanda milli zabit kadrları hazırlayan hərbi məktəbin açılmasına hələ Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən əvvəl nail olunmuşdu. Belə ki, 1918-ci il fevralın 6-da Müsəlman Korpusunun komandiri general-leytenant Əlağa Şıxlinski məktubla bolşevik inqilabından sonra Cənubi Qafqazda legitim hakimiyyət orqanı olan Zaqafqaziya Komissarlığına müraciət edərək Bakıda kiçik zabit kadrları hazırlayacaq Milli Hərbiyyə Məktəbinin açılması haqqında icazə istəmişdi. Təhsil müddəti üç ay nəzərdə tutulmuş bu məktəbin Tiflisdə formalaşdırılması və sonra Bakıya köçürülməsi planlaşdırılırdı. Tezliklə Zaqafqaziya Komissarlığından hərbi məktəbin açılmasına razılıq alındı. 1918-ci il martın 1-də poruçik Cahangir bəy Zeynal bəy oğlu Nəsirbəyov Milli Hərbiyyə Məktəbinin (sənədlərdə bu məktəb belə adlanır - Musulğmanskaə şkola podpraporşikov) rəisi təyin edildi və elə həmin gün də məktəbin Dəftərxanası fəaliyyətə başladı. Martın 19-da daha 12 nəfər zabit Milli Hərbiyyə Məktəbində təhsilin təşkili üçün uyğun vəzifələrə təyin edildilər.*




1918-ci ilin martında Bakı şəhərində törədilən qırğınlardan sonra hərbi məktəbin bu şəhərə köçürülməsi məqsədəuyğun sayılmadı. Ona görə də Korpus komandiri Əlağa Şıxlinskinin əmri ilə Milli Hərbiyyə Məktəbinin daimi heyəti və Dəftərxanası 1918-ci il aprelin 2-də Gəncəyə köçürüldü, həmin ayın 8-də Gəncənin Sənət məktəbində yerləşərək fəaliyyətini davam etdirdi.

Azərbaycan ərazisində yaranmış hərbi-siyasi şəraitlə əlaqədar olaraq Milli Hərbiyyə Məktəbinin fəaliyyəti müvəqqəti olaraq dayandırıldı. Belə ki, 1918-ci ilin martında Bakıda törədilən milli qırğınlardan sonra Bakı Sovetinin bolşevik və daşnaklardan təşkil edilmiş ordusu Azərbaycan xalqının milli azadlıq hərəkatını birdəfəlik boğmaq üçün Gəncəyə doğru hücuma başlamışdı. Bu hücumun qarşısının alınması üçün Müsəlman Korpusunun bölmələri, habelə Zaqafqaziya Komissarlığı adından bəzi gürcü bölmələri Hacıqabulda mövqe tutmuşdular. Milli Hərbiyyə Məktəbinin rəisi C.Nəsirbəyov, habelə məktəbin bir qrup zabiti də bolşevik-daşnak qüvvələri ilə mübarizə üçün Hacıqabula göndərilmişdi. Korpus komandirinin müvafiq əmrində o da bildirilirdi ki, məktəbin kursantları istədikləri halda könüllü şəkildə bolşevik-daşnak qoşunlarına qarşı mübarizədə iştirak edə bilərlər.

Ancaq zabit kadrlarının hazırlanmasının əhəmiyyəti nəzərə alındığı üçün Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasından dərhal sonra, yəni, 1918-ci ilin mayın sonunda - iyunun əvvəllərində bu məktəb fəaliyyətini yenidən bərpa etdi. Məktəbdə tədris işləri C.Nəsirbəyovun rəhbərliyi altında başladı. Ancaq Azərbaycan hökumətinin dəvəti ilə Osmanlı Türkiyəsinin hərbi qüvvələri Azərbaycana gəldikdən sonra Milli Hərbiyyə Məktəbinə rəhbərlik təcrübəli türk zabiti polkovnik Atif bəyə həvalə olundu. C.Nəsirbəyov da türk hərbi qüvvələri geri qayıdana kimi, yəni, 1918-ci ilin noyabrına kimi bu məktəbdə zabit qismində öz xidmətini davam etdirdi. Milli Hərbiyyə Məktəbinin ilk buraxılışı 1918-ci il oktyabrın 27-də Gəncədə oldu.

Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi nazirinin 1 dekabr 1918-ci il tarixli əmri ilə Gəncədə yerləşmiş Milli Hərbiyyə Məktəbi Gəncə Praporşiklər Məktəbi adlandırıldı. Bununla məktəbin statusu artırıldı. Əvvəlki məktəbi bitirənlər müəyyən müddət qoşunlarda xidmət etdikdən sonra ilk zabit rütbəsi olan praporşik rütbəsi ala bilərdilər. Yeni statusda isə məktəbi uğurla bitirənlərə dərhal praporşik (kiçik leytenant) rütbəsi verilməli idi.

1919-cu il sentyabrın 6-da Praporşiklər Məktəbi Bakı şəhərinə köçürüldü və Tarqovı (indiki Nizami) küçəsi ilə Buraqovski (indiki Rəşid Behbudov) küçələrinin kəsişməsində yerləşən əsgər xəstəxanasının binasında yerləşdirildi.

1919-cu il oktyabrın 31-də Səməd bəy Mehmandarovun əmri ilə Praporşiklər Məktəbi Hərbiyyə Məktəbinə çevrildi, təhsil müddəti iki ilə çatdırıldı. Bu məktəbi uğurla bitirənlərə podporuçik (leytenant) rütbəsi verilməli idi.

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra, 1920-ci il mayın 25-də Hərbiyyə Məktəbinin bazasında Azərbaycan Birləşmiş Hərbiyyə Məktəbi yaradıldı. Heydər Vəzirov bu məktəbin rəisi vəzifəsinə təyin edildi. Məktəbdə ixtisasların sayı genişləndirildi. Bu məktəbin əsas vəzifəsi Azərbaycanın milli tərkibli hərbi hissələrinə zabit kadrlarını hazırlamaq idi. Yeni şəraitdə məktəbdə qeyri-azərbaycanlıların rus dilində təhsil alması üçün də şərait yaradıldı.

1922-ci ilin sonlarında Birləşmiş Hərbiyyə Məktəbi indiki İstiqlaliyyət küçəsindəki 15 nömrəli binaya (hazırda Bakı şəhər İcra Hakimiyyəti ilə üzbəüz olan 132 nömrəli məktəbin binasına) köçürüldü.

1923-cü ilin avqustunda məktəb Azərbaycan Birləşmiş Hərbi Məktəbi adlandırıldı. Sovet hakimiyyəti illərində məktəbdə tədris olunan ixtisasların, habelə dinləyicilərin sayı xeyli artırıldı. 1923-cü ildə Əlağa Şıxlinski, 1924-cü ildə Səməd bəy Mehmandarov bu məktəbdə müəllim vəzifəsinə cəlb edildilər. Sonradan Əlağa Şıxlinski məktəb rəisinin müavini təyin edildi və müəyyən vaxtlarda məktəb rəisinin vəzifəsini icra etdi.

1927-ci ilin sentyabrın sonlarında Azərbaycan Birləşmiş Hərbi Məktəbinin bağlandığı elan edildi. Bu təhsil müəssisəsində zabit kadrları hazırlığında milli təsirlərin qarşısının alınması üçün qərara alındı ki, zabit kadrları hazırlığı Tiflisdə davam etdirilsin. Məktəbdə təhsil alan kursantların və müəllimlərin bir hissəsi Tiflisdə yerləşən Zaqafqaziya Piyada Məktəbinə göndərildi.

Azərbaycan Birləşmiş Hərbi Məktəbinin tədris bazası isə yerləşdiyi binada (indiki 132 nömrəli məktəbin binasında) qalmaqda davam edirdi.

Bir il sonra - yəni, 1928-ci ildə Bakıda fəaliyyət göstərən Zaqafqaziya Hərbi Hazırlıq Məktəbi həmin binaya köçürüldü və bu məktəb Birləşmiş Hərbi Məktəbin bazasında öz fəaliyyətini yenidən qurdu. Zaqafqaziya Hərbi Hazırlıq Məktəbi lisey tipli hərbi məktəb idi. Amma çox tezliklə Azərbaycandakı milli tərkibli qoşun hissələri üçün zabit kadrları hazırlığına bir zərurət yarandı. Ona görə 1930-cu ilin noyabrında Zaqafqaziya Hərbi Hazırlıq Məktəbi yenidən qurularaq Fəhlə-Kəndli Qırmızı Ordusunun komandir heyətinin S.Orconikidze adına Bakı Piyada Məktəbi adlandırıldı. Təhsil müddəti 3 il olan bu məktəbdə zabit kadrları hazırlanmalı idi.

1933-cü ildə Bakı Piyada Məktəbi Salyan kazarmaları şəhərciyində xüsusi olaraq onun üçün tikilmiş binalara köçürüldü. Həmin binalar hazırda Təlim və Tədris Mərkəzinin ərazisində olan qədim binalardır. 1937-ci ildə Bakı Piyada Məktəbi yenidən qurularaq S.Orconikidze adına Bakı Hərbi Piyada Məktəbi adlandırıldı.

Böyük Vətən müharibəsi başlananda Bakı Hərbi Piyada Məktəbi Sovet Ordusu üçün zabit kadrları hazırlayan əsas məktəblərdən biri idi. 1940-cı ildən etibarən bu məktəbdə 4 kursant taboru təhsil alırdı.

1942-ci ildə Qafqaz istiqamətində hərbi şərait mürəkkəbləşəndə Bakı Hərbi Piyada Məktəbinin şəxsi heyətinin də cəbhəyə göndərilməsi məcburiyyəti yarandı. Məktəbin kursant heyətinin bazasında 164-cü atıcı briqada yaradıldı və məktəbin rəisi də bu briqadanın komandiri təyin edildi. Məktəbin zabit və müəllim heyətinin bir hissəsi cəbhəyə yollandı. Lakin məktəbin daimi heyətinin böyük hissəsi Bakıda qalmışdı. Bakı Hərbi Piyada Məktəbinin ilk buraxılışının məzunu olmuş mərhum polkovnik İsmayıl Vəliyev bildirirdi ki, məktəb rəisinin müavini polkovnik Molçanov, məktəbin müəllimlərindən olan podpolkovnik Liçmanov, məktəbin komendantı və digər əməkdaşlar Məktəbin üç korpusundan və atış meydanından ibarət olan məktəbin maddi-texniki bazasının qorunmasına məsuliyyət daşıyırdılar. Çünki müəyyən müddətdən sonra bu məktəb öz fəaliyyətini davam etdirəcəkdi.

Bakı Hərbi Piyada Məktəbinin kursantlarından yaradılmış hissə cəbhəyə 1942-ci ilin avqustunda göndərildi. Cəmi iki aydan sonra bu məktəbə fəaliyyəti dayandırılmış Qroznı Hərbi Piyada Məktəbinin kursantlarının bir hissəsi gətirildi, burada kursant heyəti komplekləşdirildi və məktəb öz fəaliyyətini yenidən davam etdirdi. Vaxtilə Bakı Hərbi Piyada Məktəbinin rəis müavini olmuş polkovnik Molçanov məktəbin yeni rəisi təyin edildi. İki aydan sonra, yəni, 1942-ci ilin sonunda məktəbin buraxılışı oldu. Bununla, Qroznıdan gəlmiş kursantlar da Bakını tərk etdilər. Bakıdakı Hərbi Məktəb öz fəaliyyətini əvvəlki qaydada davam etdirdi.

Amma Sovet dövründə Bakı Hərbi Piyada Məktəbinin yaranma tarixi Qroznı Hərbi Piyada Məktəbinin yaranma tarixindən götürülmüşdür. Qroznı Hərbi Piyada Məktəbinin əsası 1939-cu ildə qoyulmuşdu. Alman qoşunları Qafqaza yaxınlaşanda bu məktəbin fəaliyyəti dayandırıldı, müəllim və kursant heyətinin əsası cəbhəyə yola salındı. Məktəbdə təhsilini başa vurmamış kursantlar Tbilisiyə köçürüldü. Tbilisiyə gətirilmiş kursant və müəllimlərdən də 300 nəfəri bir müddətdən sonra cəbhəyə göndərildi və Bakıya çox az sayda kursant gəlib çıxdı. Onların sayı o dərəcədə az idi ki, məktəbin fəaliyyətə başlanması üçün Bakıda əlavə kursant heyəti toplandı. Amma nədənsə sovet hakimiyyəti illərində Qroznı Hərbi Məktəbinin az sayda kursantının Bakı Hərbi Piyada Məktəbində cəmi iki ay təhsil almasına görə, 20 illik tarixi olan Bakı Piyada Məktəbinin yaranma tarixi Qroznı Hərbi Piyada Məktəbinin yarandığı tarixdən götürülmüşdür. Yəni, Qroznı Hərbi Piyada Məktəbinin kursantlarının mütləq əksəriyyəti öz təhsillərini Tbilisi Hərbi Məktəbində davam etdirsə də, Tbilisi Hərbi Məktəbinin tarixi heç də Qroznı Hərbi Piyada Məktəbinin yaranma tarixindən götürülməmişdi. Amma həmin məktəbin çox az sayda kursantının cəmi iki aya Bakıya gəlməsi ilə Bakı Hərbi Piyada Məktəbinin yaranma tarixi bir kənara atılmış, Qroznı Hərbi Məktəbinin tarixi Bakı Hərbi Məktəbinin tarixi kimi qəbul edilmişdir. Bununla, əslində, heç bir tarixi əsas olmadan hərbi kadr hazırlığı sahəsində Azərbaycanda görülən işlərin üzərindən də xətt çəkilmişdi.

Bakı Piyada Məktəbinin yaranma tarixinin Qroznı Piyada Məktəbinin yaranma tarixinə bağlanması istər məntiqi, istərsə də tarixi baxımdan doğru deyildir. Çünki Qroznıdan Bakıya hər hansı bir baza gətirilməmişdi və gətirilməsi mümkün deyildi. Tədris bazası bütünlüklə Bakıda yaradılmış baza idi və bu məktəb cəmi iki aylıq fasilədən sonra əvvəlki komandir heyətin rəhbərliyi altında öz fəaliyyətini davam etdirdi. Məktəbdə yeni olan yalnız az sayda kursant heyəti idi ki, onlar da iki aydan sonra Bakını tərk etdilər.

1958-ci ildə Bakı Piyada Məktəbi Bakı Ali Ümumqoşun Komandanlıq Məktəbinə çevrildi və bu statusda öz fəaliyyətini SSRİ mövcudluğu dövründə davam etdirdi.

Azərbaycanın müstəqilliyi illərində bu məktəbin adı dəyişdirilməklə, fəaliyyəti də təkmilləşdirildi. Belə ki, 1992-ci ilin aprelində Bakı Ali Birləşmiş Komandanlıq Məktəbi, 2001-ci ildə Azərbaycan Ali Hərbi Məktəbi adlandırılaraq fəaliyyəti də təkmilləşdirildi. 10 mart 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə məktəbə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı verildi. Yəni, tarixi həqiqət belədir ki, zabit kadrlarının hazırlığı üzrə respublikada flaqman olan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin 101 yaşı vardır və bu 101 illik tarix Azərbaycanın hərb tarixində çox şərəfli bir səhifəni təşkil edir.

**Mehman SÜLEYMANOV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının professoru, tarix elmləri doktoru, ehtiyatda olan polkovnik**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.**
**2. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.**
**3. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.**

**Mövzu:** Müstəqillik tariximiz. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti haqqında tarixi materiallardan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət*

Azərbaycan öz müstəqilliyini elan etmək ərəfəsində Rusiya imperiyasının tərkibində idi. Rusiyanın 1914-cü ildə I Dünya müharibəsinə qoşulması nəticəsində ölkədə yaranan ağır iqtisadi vəziyyətdən, cəbhədəki uğursuzluqlardan məharətlə istifadə edən bolşeviklər xalq kütlələrini çar hakimiyyəti əleyhinə qaldırmağa müvəffəq oldular. 1917-ci il fevralın 27-də Rusiyada baş verən çevriliş nəticəsində çar II Nikolay taxt-tacdan əl çəkməyə məcbur oldu. Rusiyada hakimiyyət Müvəqqəti Hökumətin əlinə keçdi. 1917-ci il martın 9-da Müvəqqəti Hökumət tərəfindən Zaqafqaziyanın idarə edilməsi üçün Xüsusi İdarə Komitəsi yaradıldı. Komitəyə Dövlət Dumasının yerli üzvləri daxil edilmişdilər.

Fevral inqilabının siyasi həyata gətirdiyi canlanma nəticəsində Azərbaycanın müxtəlif şəhərlərində müsəlman milli şuraları yaradıldı. Bu şuralar öz fəaliyyətlərini milli məqsədlər istiqamətində qurmağa çalışırdılar. Onların arasında ən güclüsü və nüfuzlusu Bakı Müsəlman İctimai Təşkilatları Şurası idi. Bu şuranın tərkibinə Azərbaycan milli-azadlıq hərəkatının liderləri olan Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Mehdi bəy Hacinski kimi ziyalılar daxil idilər. Özünün ümummilli xətti ilə xalqın rəğbətini qazanan şura Bakıda siyasi üstünlüyə malik idi.

Rusiyada 1917-ci il oktyabr silahlı üsyanından sonra Zaqafqaziya Xüsusi Komitəsi öz fəaliyyətini dayandırdı və noyabrın 11-də Zaqafqaziyada hakimiyyəti öz üzərinə götürəcək müvəqqəti orqan kimi Zaqafqaziya Komissarlığı yaradıldı. Komissarlığın tərkibinə Azərbaycandan Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlikaslanov və Xəlil bəy Xasməmmədov təyin edilmişdilər.

1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya Seymi yaradıldı. Seymdə Azərbaycanı 44 nümayəndə təmsil edirdi. Yaranan ilk günlərdən azərbaycanlı, gürcü və erməni fraksiyaları arasında fikir ixtilafları mövcud idi. 1918-ci il aprelin 22-də Zaqafqaziya Federativ Respublikası elan edilsə də, ziddiyyətlər qalırdı.

*Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu*

1918-ci il mayın 26-da Zaqafqaziya Seymi buraxıldı və həmin gün Gürcüstan öz müstəqilliyini elan etdi. Mayın 27-də Tiflisdə Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən və keçmiş Seymin Azərbaycan fraksiyasının 44 nümayəndəsindən 26 nəfərinin iştirak etdiyi iclasda Azərbaycan Milli şurası yaradıldı və şura Azərbaycanın idarə olunmasını öz üzərinə götürdü. Mayın 28-də Məmməd Əmin Rəsulzadənin sədrliyi ilə Milli Şuranın ilk iclası oldu. İclasda Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul edildi və "İstiqlal bəyannaməsi"nin mətni təsdiqləndi.

Milli Şuranın 28 may tarixli iclasında Azərbaycan Xalq Cümhuriyyəti ilk hökumətinin təşkil edilməsi Fətəli xan Xoyskiyə tapşırıldı. Həmin gün Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin tərkibi müəyyənləşdirildi.

Mayın 30-da Azərbaycanın müstəqilliyini elan etməsi haqqında dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqrafla məlumat verildi.

İyunun 4-də Azərbaycanın nümayəndə heyəti Batumda Osmanlı dövləti ilə daimi sülh və dostluq münasibətləri haqqında müqavilə imzaladı. Azərbaycan hökumətinin xahişinə cavab olaraq Ənvər Paşa hökuməti Azərbaycana 2 mln. türk lirəsi ayırdı.

1918-ci il iyun ayının 16-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Tiflisdən Gəncəyə köçdü. Milli Şura Müvəqqəti Hökuməti təşkil etməyi Fətəli xan Xoyskiyə tapşırdı.

İyunun 17-də Gəncədə Fətəli xan Xoyskinin rəhbərliyi ilə ikinci hökumət təşkil edildi. İkinci hökumətin tərkibində hərbi nazir vəzifəsi yox idi. İyunun 23-də Azərbaycanda yaranmış gərgin vəziyyəti nəzərə alaraq, hökumət bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi.

Qatı millətçi Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin ixtiyarında olan, əsasən erməni və ruslardan təşkil olunmuş 18 minlik hərbi qüvvə iyunun 10-da Gəncə istiqamətində yürüşə başladı. İyunun 12-də Kürdəmiri işğal edən qoşunlar iyunun 27-də Göyçaya yaxınlaşdılar. Qafqaz İslam və Azərbaycan Ordusunun hissələri Göyçay ətrafında bolşevik-daşnak qüvvələrini darmadağın edərək, Bakı istiqamətində azadlıq yürüşünə başladılar. İyulun 20-də mühüm strateji məntəqə olan Şamaxı azad edildi. Sentyabrın 15-də Azərbaycan hərbi hissələri və türk qoşunları Nuru Paşanın rəhbərliyi altında Bakı üzərinə hücum edərək şəhəri azad etdilər. Azərbaycan hökuməti sentyabrın 17-də Bakı şəhərinə köçdü.

Lakin Azərbaycanda siyasi hadisələrin inkişafı daxili proseslərdən daha çox I Dünya müharibəsinin gedişindən və nəticələrindən asılı idi. Azərbaycan öz mənafeyi naminə Osmanlı dövlətinin qalib gəlməsini arzulayırdı. Lakin Türkiyə ilə Antanta dövlətləri (Fransa, İngiltərə və ABŞ) arasında 1918-ci il 30 oktyabr tarixli Mudros müqaviləsinə görə, məğlub sayılan Türkiyə qoşunlarını Azərbaycandan çıxarmalı, Antanta qüvvələrinin Bakıya gəlməsinə mane olmamalı, Zaqafqaziya dəmir yolu üzərindəki nəzarət hüququnu Antantaya güzəştə getməli idi.

Noyabrın 17-də ingilis qoşunları Bakıya daxil oldular. Bakıda ingilis general-qubernatorluğu yaradıldı. İngilis qoşunlarının komandanı general V.Tomson Azərbaycanın müstəqilliyini tanımaq haqqında bəyanat verməkdən imtina etsə də, Azərbaycanın Paris Sülh Konfransında iştirak edəcəyi, Bakıya erməni hissələrinin daxil olmayacağı barədə öz üzərinə öhdəliklər götürdü.

Dekabrın 7-də Azərbaycan Parlamentinin ilk iclası oldu. Parlamentin ilk iclasında Fətəli xan Xoyski hakimiyyəti parlamentə təhvil verdi. Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə onun müavini seçildi. Hökumətin təşkili Fətəli xan Xoyskiyə tapşırıldı. Dekabrın 26-da hökumətin tərkibi elan edildi.

1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğu ləğv edildi, ingilislər Paris Sülh Konfransının şərtlərinə uyğun olaraq Qafqazı tərk etməyə başladılar.

1920-ci il yanvarın 11-də Paris Sülh Konfransı Azərbaycanın istiqlaliyyətinin tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qısa bir müddətdə normal fəaliyyət göstərən dövlət aparatı yaratmağa, 20-dən çox dövlətlə diplomatik əlaqələr qurmağa nail oldu. Yeni yaranmış dövlət fəaliyyəti dövründə "türkləşmək, islamlaşmaq və müasirləşmək" ideyası uğrunda mübarizə aparırdı.

*Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində*

SSRİ-nin süqutundan sonra beynəlxalq aləmə tam müstəqil bir faktor kimi inteqrasiya etməyə başlayan gənc dövlətlərdən biri də Azərbaycan Respublikası idi. Ölkəmizin olduqca əlverişli geosiyasi məkanda, həm də dünyanın super güclərinin barışmaz maraqlarının kəsişdiyi regionda yerləşməsi milli dövlətçilik prinsiplərinə, müstəqilliyin və suverenliyin qorunmasına xidmət edəcək dayanıqlı xarici siyasi strategiyanın hazırlanmasını və tətbiqini tələb edirdi.

Qeyd edək ki, o dövrdə ölkəmizin müasir beynəlxalq münasibətlərin önəmli iştirakçısına çevrilməsi prosesi olduqca gərgin olub. Məhz ümummilli lider Heydər Əliyevin böyük səyi, müdrikliyi sayəsində Azərbaycan beynəlxalq ictimaiyyətlə uğurlu ünsiyyət quraraq, milli maraqlarının təmin edilməsində əhəmiyyətli addımlar ata bildi.

Tariximizin son 100 ili sübut edir ki, tamam fərqli siyasi reallıqlardan söhbət getməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti dövrü ilə 1991-ci ildə ikinci dəfə qazanılan müstəqillik dövrünün ilk illərindəki oxşar məqamlar çox olub. Belə ki, yenə də Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində regionda dünyanın böyük dövlətlərinin barışmaz maraqlarının toqquşması, milli təhlükəsizliyimiz üçün ciddi təhdid olan erməni təcavüzü, daxili siyasi vəziyyətin olduqca gərgin olması, 1991-1992-ci illərdə müstəqil Azərbaycanın gələcək inkişaf strategiyasının qeyri-müəyyənliyi müşahidə olunurdu. Deməli, belə nəticəyə gəlmək olar ki, keçən əsrin həmin illərində Azərbaycan dövlətinin mövcudluğu yenə də sual altında idi.

Yalnız 1993-cü ildən başlayaraq, yəni, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra milli maraqların təmin olunmasına, beynəlxalq aləmlə sıx inteqrasiya istiqamətlənən xarici siyasi strategiya formalaşmağa başladı. Balanslaşdırılan siyasətə söykənən bu strategiya Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolunun təşəkkül tapmasına xidmət edirdi.

Lakin həmin dövrün siyasi reallıqları fonunda buna birdənbirə nail olmaq qeyri-mümkün idi. İlk olaraq beynəlxalq ictimaiyyəti Azərbaycan Respublikası ilə qarşılıqlı əməkdaşlığa sövq etməli və onları bu əlaqələrin faydalı olacağına inandırmaq lazım idi. Yalnız bundan sonra milli maraqlarımızı regionda maraqları toqquşan dövlətlərin mənafeləri ilə uzlaşdırmaq, təhlükəsizliyimizə beynəlxalq təminat almaq üçün addımlar ataraq müsbət nəticələr əldə etmək olardı. Həmin səbəbdən ümummilli lider Heydər Əliyev konkret dövlətlərin regionda hansı maraqlara malik olması və bu maraqların onlar üçün hansı səviyyədə əhəmiyyətli olmasını dərindən təhlil etdi. Məhz bu cür yanaşmadan çıxış edərək, ilk növbədə, Rusiya ilə sıx əlaqələr quruldu.

Həmin dövrdə Azərbaycan Respublikası Rusiya ilə bərabərhüquqlu qarşılıqlı əlaqələr yaratmaqla yanaşı, Rusiyanın ölkəmizə olan təzyiqlərini neytrallaşdırmaq üçün digər strategiyalardan da yararlandı. Bunun üçün əsasən, ABŞ və Avropa dövlətlərinin regiondakı maraqlarının toqquşmasından məharətlə istifadə edildi. Sonrakı addım Azərbaycanın etibarlı tərəfdaş kimi qəbul olunması üçün təsirli tədbirlərin həyata keçirilməsi oldu.

O, vaxt Avropa dövlətləri ilə ikitərəfli, eyni zamanda, İranla yaxın qonşuluq əlaqələrinin qurulmasına xüsusi önəm verildi.

Məlumdur ki, Azərbaycan Respublikasının xarici siyasi kursunda Türkiyənin xüsusi yeri var. Artıq bu gün Azərbaycan-Türkiyə münasibətləri beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında inkişaf etdirilərək tamam yeni mərhələyə qədəm qoyub. Göründüyü kimi, ümummilli lider Heydər Əliyev ilk öncə region dövlətləri, sonra isə dünyanın digər nüfuzlu dövlətləri ilə ikitərəfli və çoxtərəfli qarşılıqlı əlaqələr qurmaqla respublikamızın beynəlxalq münasibətlər sistemində özünə layiq yer tutması üçün etibarlı zəmin hazırladı. Bu gün ölkəmiz strateji tərəfdaşı olan ABŞ ilə siyasi-iqtisadi, qlobal problem və təhlükələrə qarşı mübarizədə sıx əməkdaşlıq edir.

Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində layiqli yerinin müəyyənləşməsində NATO, ATƏT, AŞ, Aİ, İKT, QİƏT, EKO, MDB və s. bu kimi təşkilatlarla əməkdaşlığının rolu böyükdür. Burada BMT və onun İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlığı, Uşaq Fondu, Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Qadınlar Fondu, Ümumdünya Səhiyyə Təşkilatı, YUNESKO və digər qurumları xüsusilə qeyd etmək lazımdır.

Azərbaycan Respublikasının beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində rolu və yerini dəyərləndirən dünya ictimaiyyəti artıq onu həm də etibarlı tərəfdaş kimi tanıyır. Respublikamızın karbohidrogen strategiyasının mühüm tərkib elementlərindən olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri bu gün bölgədə əməkdaşlığın, sülhün, təhlükəsizliyin təmin edilməsində xüsusi rol oynayır. Qeyd edək ki, Azərbaycan Respublikası beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında həm də çoxillik təcrübəyə malikdir.

Hazırda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin beynəlxalq aləmdə milli maraqlarımızın qorunması istiqamətində gördüyü çoxşaxəli işlər, apardığı müstəqil xarici siyasəti Azərbaycan Respublikasının rolunun daha da artmasını mümkün edib. Sürətli iqtisadi inkişaf və dövlətlərarası münasibətlərdə beynəlxalq hüquq normalarına sadiqlik nümayiş etdirməsi isə ölkəmizi regional lider dövlətinə çevirib və beynəlxalq aləm etibarlı tərəfdaş kimi tanıdıb.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində tədbir keçirilib



Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində Qurban Səidin "Əli və Nino" romanının müzakirəsi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Naxçıvan Qarnizonunun şəxsi heyəti qarşısında çıxış edən Əlahiddə Ümumqoşun Ordu Komandanının müavini general-mayor Elman Orucov bildirib ki, "Əli və Nino" romanı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 28 avqust 2017-ci il tarixli Sərəncamına əsasən, "Oxunması zəruri olan kitablar"ın siyahısına daxil edilib. Bildirilib ki, dünyanın 30-dan çox dilinə tərcümə olunan əsərdə əcdadlarının adət-ənənələrinə sadiq qalan, Vətəni uğrunda həyatını qurban verməyə hər an hazır olan Əlinin gürcü qızı Ninoya olan sonsuz məhəbbəti öz əksini tapıb.

Digər çıxış edənlər kitab haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib, əsərin spesifik xüsusiyyətlərindən danışıblar.



Tədbirin sual-cavab hissəsində "Əli və Nino" əsərinə aid suallara düzgün cavab verən Heydər Əliyev adına Hərbi Liseyin kursantları və əsgərlər mükafatlandırılıblar.

Sonda "Əli və Nino" romanının motivləri əsasında çəkilmiş eyniadlı bədii filmə baxış olub.

*Ovqat*

# Əkiz qardaşım - əsgər yoldaşım

*Bu ilin payızından umacağımız çoxdu: payız bar-bərəkət fəslidi, duyğularımızın, düşüncələrimizin, istəyimizin, murazımızın bərəkətli olmasının arzusundayıq.*

Oğullar böyüyür...

Yeniyetmələr çağırışçı olur...

Çağırışçılar hərbi xidmətə gedir. Həmin gün çağırışçının ata-anasının, əzizlərinin sevinci aşıb-daşır, kükrəyir, ürək bu boyda sevincə darlıq edir. Bu sevinci öz sevinci bilənlər sabahdan əsgər olacaq oğulun ata-anasına gözaydınlığı verir...

Eyni gündə iki oğlu hərbi xidmətə gedən anaların duyğularını təsvir etməyə qüdrətim çatmayacaq...

Müxtəlif vaxtlarda müxtəlif yerlərdə əkiz qardaşlar görmüşəm.

Əkiz qardaşlar görmüşəm ki, birinin digərinə bənzəri yoxdu, birini digərindən ayırd edə bilmədiklərim də olub. Oxşarlıq tapa bilməyəndə də heyrətlənmişəm, ayırd edə bilməyəndə də. Hər dəfə də əkizlərin incə, qılıqcıl təbəssümüylə əhatələnmişəm...

Ön xətdə "N" hərbi hissəsində ezamiyyətdəydim. "Vaxt üstümüzdən yel kimi keçməmişdi" (S.Vurğun), səngərdə zabitlərlə, əsgərlərlə səmimi söhbətləşmişdik. Adətimcə, söhbətləşdiklərimin - söz soruşub cavab aldıqlarımın, mükalimələşəndə fikir deyənlərin ad-soyadını sonda soruşuram. İndi də sonu gözlədim. Əsgərlərdən biri "Murad Hüseynov", - dedi, biri "Nurlan Şərifov", biri "Ruslan Şərifov", - dedi. Onda sövq-təbii soruşdum ki, Nurlanla qohumsunuzmu? "Yox", - dedilər. "Qohum deyilik, qardaşıq, həm də əkiz qardaşıq". Ön xətdə əkiz qardaşlara ilk dəfə rast gəlirdim. Bu əldüşməz təsadüf könlümü təlləndirdi...

Nurlanla Ruslanın zahirən bir-birinə o qədər də



bənzəri yoxdu. Tanımasan, məxsusi diqqət yetirməsən, onlarda gözlərindən, baxışlarından savayı ortaq heç nə müəyyənləşdirə bilməzsən.

Qəbələnin Cığatelli kəndindəndirlər. 2000-ci il dekabrın 24-də dünyaya gəliblər. Eyni gündə məktəbə gediblər, eyni sinifdə oxuyublar, eyni gündə hərbi xidmətə çağırılıblar, eyni gündə Hərbi and içiblər, indi eyni taqımda xidmət edirlər, eyni vaxtda döyüş növbətçiliyinə gedirlər. Necə deyərlər, 19 ildi nəfəs nəfəsədirlər. Aqil insanların dediyi kimi, qardaşdırlar, müqayisəyəgəlməz səmimiyyətlə yoldaşdırlar, həm də əkiz qardaşdırlar, həm də hərbi xidmət yoldaşıdırlar; eyni gündə tərxis olunacaqlar.

Leytenant Nəsimi Həsənli dedi ki, qardaşların ikisi də nümunəvi xidmət edir, hər ikisi döyüş növbətçiliyini yüksək məsuliyyətlə aparır. Nurlan bir qədər dilavərdi, hərdən sözarası deyir ki, mən Ruslandan böyüyəm. Deyir və gülümsünür. Nəsimi də gülümsündü. Onun təbəssümünü Nurlanın təbəssümünə bənzətdim:

- Nurlan o qədər də hiss edilməyən boyunun uca olmasını nəzərdə tutur, - leytenantın dediklərini Nurlanın iddiasına izah bildim, dodaqlarım "qaçdı"...

- Xalqımız xalq kimi formalaşandan bəri - bu müddət min illərlə ölçülür - bütün tarixi dövrlərdə cəmiyyətdə münasibətlər özündən böyüyə hörmət, ehtiram psixologiyasına əsaslanıb. Bu münasibəti bəşəri münasibət kimi digər xalqlar da dəyərləndirib; "böyük-kiçik" münasibəti həmişə milli xarakterin, milli köklərə söykənən təfəkkürün tərkib hissələrindən biri kimi yaşadılır, yaşadılacaq.

- Qardaşıq, həm də dostuq. Nə qardaş olaraq, nə də dost olaraq heç zaman sözümüz haçalaşmayıb, - Nurlan belə dedi.

- Belə münasibət ata-ana öyüd-nəsihətiydi. Bu öyüd-nəsihət hərbi xidmətlə tamamlandı, - Ruslan dedi...

Dörd nəfəriydik: leytenant Nəsimi Həsənli, Nurlan, Ruslan, mən. Səmimi söhbətləşirdik, bu iki əsgər uşaqlığından, yeniyetməliyindən danışmışdı; çağırışçı olduqları illəri də xatırladılar.

- 2016-cı ilin Aprel döyüşlərində orta məktəbdə oxuyurduq. Əsgərlərimizin qazandığı qələbələr bizim də qürurumuz oldu. O günlərdə hamı kimi biz də döyüşlərlə nəfəs alırdıq, özümüzü xəyalən əsgərlərimizin sırasında hiss edirdik, - Nurlan dedi.

- Həmin dörd-beş gün bizi, biz yaşda uşaqları əsgərləşdirdi, - Ruslan dedi.

- Onda Ruslan dedi ki, ordumuz Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan tamamilə azad edəcək. Hamımızın barmaqları yumruqlaşdı, - Nurlan dedi.

- Nurlan dedi ki, biz belə bir ordunun əsgəri olacağıq, - Ruslan dedi. Hər ikisi dedi ki, biz əsgərik, Hərbi andın tələblərinə ciddi əməl edirik, zabitlərin əmr və göstərişlərini məsuliyyətlə yerinə yetiririk...

Biz də evə qalib əsgər kimi dönmək istəyirik.

- Ananız iki qalib əsgər oğulun hansını əvvəl bağrına basacaq görəsən? - soruşdum. Cavab gözləmədən "Yəqin ki, bir qolu birinizi, o biri qolu o birinizi bağrına basacaq", - dedim. Əkiz qardaşlar tərəddüd etmədən "əlbəttə", - dedilər.

Ruslan Nurlana, Nurlan Ruslana bir ömür qardaşım - əsgər yoldaşım deyəcək. Bir daha təsdiqlənəcək ki, əkiz qardaşlar da əsgər yoldaşlığıyla, əsgər dostluğuyla qürurlanırlar. Nurlan da, Ruslan da "əkiz qardaşım - əsgər yoldaşım" misrasını bir ömrün nəqəratı biləcək.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində bir-birinə qarşı fiziki və cinsi təzyiqlər zəminində cinayət hallarının qarşısı alınmadığından belə faktların sayı artmaqda davam edir. Bu günlərdə tabelikdə olanları cinsi təzyiqə və istismara məruz qoymaqla bağlı daha bir cinayətin üstü açılıb.

İşğalçı Ermənistan ordusunda tabor komandirinin texnika üzrə müavini mayor Artuşer Ohanyan taborda xidmət edən əsgər Levon Avanesyanı cinsi istismara məruz qoyub. Mayor əsgərin susması və bu işə mütəmadi razı olması müqabilində onu məzuniyyətə göndərəcəyinə və xidmətinin rahat keçməsinə şərait yaradacağına söz verib.

Lakin mayorun verdiyi sözə əməl etmədiyindən qəzəblənən əsgər L.Avanesyan baş verənlər barədə "zampolitə" danışıb.

Faktla bağlı araşdırma aparılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində müxtəlif xəstəliklərə məruz qalan əsgərlərin müalicəyə göndərilməməsi, yaxud yalnız xahiş-minnətlə tibb müəssisəsinə yerləşdirilməsi artıq adi hala çevrilib. Bu günlərdə müalicəyə göndərilməyən daha bir əsgər Davit Karapetyanın valideynləri övladlarından nigaran qaldıqları üçün hərbi komissarlığa müraciət ediblər.

İşğalçı Ermənistan ordusunun "Yeğnik" təlim mərkəzində xidmət edən hərbi qulluqçu Davit Karapetyan səhhətində ciddi problemlər olmasına baxmayaraq komandanlıq onu müalicəyə göndərmək istəmir.

Əsgərin valideynlərinin müraciətindən sonra yüksək vəzifə tutan A.Bağdasar hərbi qulluqçunun təcili tibb müəssisəsinə göndərilməsi barədə hissə komandirindən "xahiş edib".

Əsgərin valideynləri xəstə övladlarının sağlamlığının günü-gündən pisləşdiyini deyirlər.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət keçən hərbi qulluqçuların sosial-məişət şəraitinin acınacaqlı olması əsgər valideynləri üçün ürək ağrısına çevrilib.

İşğalçı Ermənistan ordusu rəhbərliyinin guya yeni qidalanma sisteminə keçməsi, daha keyfiyyətli yeməklə təmin edilməsi barəsində az qala hər gün yayılan xəbərlər valideynləri aldatmaqdan başqa bir şey deyil. Tərxis olunan bəzi əsgər valideynlərinin Ermənistan müdafiə nazirliyinin qaynar xəttinə qidanın keyfiyyətsiziliyi ilə bağlı etdiyi zənglər hərbi qulluqçuların yeməyində yeniliklərin olması barədə məlumatların yalan olduğunu təsdiq edir.

Bu günlərdə Ermənistan ordusunun hissələrindən birində kütləvi zəhərlənmə hadisəsi qeydə alınıb. Hospitala göndərilən əsgərlərdən birinin yaxın qohumunun dediyinə görə, şam yeməyində istifadə müddəti çoxdan bitmiş pendir yeyən 15 erməni əsgəri zəhərlənib. 5 hərbi qulluqçunun vəziyyəti nisbətən qənaətbəxş olduğuna görə onlar hərbi hissənin tibb məntəqəsində saxlanılıb. Qida zəhərlənməsi nəticəsində vəziyyəti ağır olan 10 əsgər isə təcili yardım maşınları ilə hospitala təxliyə olunub.

Ordu komandanlığının göstərişi ilə aparılan araşdırmaya bir neçə həkim də cəlb olunub.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində baş verən sui-qəsd hadisəsi nəticəsində zabit hospitala yerləşdirilib.

İşğalçı Ermənistan ordusunun 6-cı dağatıcı alayının yanacaq xidməti rəisi Marat Mirzəyan adlı hərbi qulluqçusu kimyəvi turşu buxarından zəhərlənmə nəticəsində böyrək çatışmazlığı diaqnozu ilə təcili hospitala yerləşdirilib.

Xidmət rəisinin sui-qəsd hadisəsi nəticəsində zəhərlənərək hospitala yerləşdirilməsi faktı hərbi polis tərəfindən arşdırılır. Həkimlər hərbi qulluqçunun vəziyyətinin ağır olduğunu bildiriblər.

Hadisə ilə bağlı dindirilənlər tərəfindən yanacaq xidməti rəisi M.Mirzəyanın vəzifəsindən sui istifadə edərək külli miqdarda yeyintiyə yol verməsi, işin üstünün açıldığına görə isə özünə qəsd etməyə cəhd etməsi iddia edilir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

AZƏRBAYCAN ORDUSU

*Ön xətdə düşüncələr*

# Sən qalib gələcəksən, Azərbaycan əsgəri!

*Sən ictimaiyyətin inamısan, güvənisən. Bu inam, bu güvənc dönməz qətiyyətə, başəri gücə, qüdrətə söykənir. Bu güc-qüdrət Azərbaycan Ordusunun istifadəsində olan hərbi texnikaları, qurğuları məharətlə idarə edənlərin Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətindədi. Bu sədaqətin necə sədaqət olduğu hərbi xidmətlə təsdiqlənir...*



Hərbi xidmət Vətənə borc ödəmədi.

Hərbi xidmət vətəndaşlıq borcunun Hərbi andın, Hərbi Nizamnamələrin tələbləri səviyyəsində, bu tələblər əsasında yerinə yetirilməsidi. Hərbi xidmətə yaxından bələd olanlar bilirlər ki, komandirlərin, hərbi hissənin zabitlərinin əmr və göstərişlərinin vaxtında və məsuliyyətlə yerinə yetirilməsi nümunəvi xidmət kimi dəyərləndirilir - bəyənilir, təqdir olunur. Ön xətdə nümunəvi xidmət bu amillə bir sırada döyüş növbətçiliyinin də son dərəcə məsuliyyətli aparılmasıdır.

Ön xətdə nümunəvi xidmət edənlərin əhatəsində söhbətləşdiyim əsgərlərin düşüncələrinin məzmunu da, ifadə forması da mənə həmişə könül xoşluğu verib. O düşüncələrdə sərhəd bütövlüyüylə Vətən var - Azərbaycan var, səngərsiz Vətən torpağı var, sərhəd bütövlüyünə, səngərsiz torpaqlara görə döyüş əzmi var, qələbə ruhu var. Bunlar həm ayrılıqda, həm də vəhdətdə Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqət əsasında formalaşıb. Bunun nəticəsidir ki, "Vətən-gözdü, biz-kirpik", "Səngərləri sərhədlərə köçürəcəyik!", "Səngər müvəqqəti dayanacaqdı Böyük Qələbənin yolları üstə", "Səni yaşatmaq üçün qoruyuruq, Ana Torpaq", "Sənin üçün hər birimiz Mübarizik, Ana Vətən!",... deyən Azərbaycan əsgərinin düşüncələri işıqlı düşüncələrdi. Gündüzlər hər yanı nurlandıran Günəş var, gecələr səngərləri də, Ayın da, ulduzların da işığını, obrazlı şəkildə desək, əsgər düşüncələri işıqlandırır.

Səngərlərdə əsgərlərlə söhbətlərimiz həmişə səmimi olur. Zabitlərin də iştirakıyla keçən hər söhbəti mahiyyət səmimiləşdirir; Vətən, dövlət, torpaq, səngər, qələbə,... kəlmələri həm söhbətin gərəkliyini, həm də səmimiliyini təmin edir. Asudə vaxt biçimində təşkil olunan söhbətlərdə ordu quruculuğundakı nailiyyətlərdən danışırıq, Cənubi Qafqazda ən güclü ordu olan Azərbaycan Ordusunun dünya miqyasında da ən güclü ordulardan biri olmasıyla qürurlanırıq. Bu qürur unutmadığımız, unutmayacağımız möhtəşəm bir tarixi - 2016-cı ilin aprelini də, döyüşləri də, qələbələri də yada salır. Həmin qürurun davamı kimi 2018-ci ilin yayında Azərbaycan Ordusunun yaranmasının, payızında Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paradları möhtəşəmliklə xatırlayırıq. Bu yadasalmaları da, xatırlamaları da yaxın vaxtlarda yaşayacağımız qənirsiz ovqatın başlanğıcı bilirik; Lələtəpə, Bayraqtəpə zəfərlərini Azərbaycan əsgəri Şuşa zəfəriylə tamamlayacaq, işğalı sonlandıracaq, müharibə başa çatacaq, Azərbaycanın dövlət sərhədləri daxilində səngər qalmayacaq. Səngərdə söhbətlərin, söhbətlərdə xatırladılanların, deyilənlərin yaratdığı ovqat bizə, bizim timsalımızda ictimaiyyətə inamdı, etimaddı, güvəncdi, əsgərlərə isə döyüş əzmidi, qələbə ruhudu, xalqa arxalanmaqdı...

Bir dəfə səngərdə əsgərlərdən biri bir qədər çəkinə-çəkinə, bir qədər ərklə soruşmuşdu:

- Böyük Vətən müharibəsi başlayan gün Səməd Vurğun yazmışdı:

*Bilsin ana torpaq,*
*eşitsin Vətən,*
*Müsəlləh əsgərəm*
*mən də bu gündən!*

İndi şairlər niyə müsəlləh əsgər olmur?

Heysiyyətli sualıydı, vətənpərvərliyin yaratdığı sualıydı. Belə üstün bir sualı döyüş əzmi, qələbə ruhu yaratmışdı, şübhəsiz. Sualın cavabı da vətənpərvərliyi əhatələməliydi. Dedim:

- Onlarla şair, xalq şairi Hüseyn Arifin təbiriycə desək, dəfələrlə səhəri səngərlərdə açıb, neçə-neçə dəyərli əsər yazıb. Xalq şairi Məmməd Araz neçə gün Murovdağda əsgər həyatı yaşadı. Bu, şairin, xalq şairinin, xalqın şairinin özünün də, sözünün də müsəlləhləşməsiydi. O günlərdə Məmməd Arazın timsalında Azərbaycan poeziyası müsəlləhləşmişdi. Sonralar başqa şairlər də əsgərlərlə səngərlərdə söhbətləşmişdi, mətləb verib mətləb almışdı. Bunları Azərbaycan əsgərinin düşüncələrinə, Azərbaycan ədəbiyyatına gərəkli təsir prosesi hesab etmək olar. Bu proses indi də səmimiyyətlə davam etdirilməkdədir.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Azərbaycan Yazıçılar Birliyi arasında ikitərəfli memorandum imzalanıb. Bu, əsgərlərin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində sözün - ədəbiyyatın təsirinin yüksəldilməsi, müsəlləhləşməsi deməkdir.

Əsgər razılıqla gülümsünmüşdü...

Əsgərin gərəkli sualı ətrafında geniş müzakirə olmuşdu. Müxtəlif fikirlər səslənmişdi: gah fikirlər üst-üstə düşmüşdü, gah fikir fikri tamamlamışdı, gah fikirlər toqquşmuşdu, bir fikir digərini inkar etmişdi. Ümumi fikir hamımıza könül xoşluğu vermişdi: Müharibə qurtarana kimi hamı əsgərləşməlidi, işlədiyi sahədə müsəlləh əsgər olmalıdı...

İctimaiyyət sənə güvənir, inanır, Azərbaycan əsgəri. Bunlar sizin döyüş əzminizi kükrədən amillərdəndir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ön xətdə, səngərlərdə hərbi qulluqçulara tövsiyələr verməsi bu döyüş əzmini qələbə ruhu səviyyəsinə çatdırır. Siz Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlamağa hazırsınız.

"Lələtəpə" poemasında Lələtəpəyə xitabən yazmışdım ki, sağın da, solun da yollardı, burdan Şuşaya aparan yollar görünür. Ön xətdə yerləşən hərbi hissələrdən birində keçirilən təqdimatda əsgərlərdən biri demişdi ki, həmin yollar bu gün adi yollardı. Ali Baş Komandanın əmriylə döyüşlər başlayanda o yolların hər biri qələbə yolu olacaq.

- Səngərlər sizin döyüş əzminizə darlıq edir, eləmi? - soruşmuşdum. Zabitin əli sualımı cavablandırmaq istəyən əsgərin çiyninə enmişdi, yəni, sən də, sənin əsgər yoldaşların da Ali Baş Komandanın döyüş əmrinə tam hazırsınız. Mənə xitabən demişdi:

- Müşahidə etdiyiniz döyüş əzmi, qələbə ruhu səngərlərə sığmır, səngər bu ruha, bu qətiyyətə darlıq edir. Böyük Qələbə ərəfəsindəyik...

Əsgərlərin baxışlarından boy göstərən qətiyyət bir qədər də dönməzləşmişdi; Yusif Mirzəyev belə məqamlarda deyirdi ki, qın qılınca darlıq edir. Bir az əvvəl Yusifin o vaxtlar dediyini biz "Səngər döyüş əzminə, qələbə ruhuna darlıq edir kimi demişdik. Ruhun yaşarılığı budur! Bu ruhun zərrəsi olmaq da səadətdi, Vətən!", - deyirəm. "2016-cı ilin Aprel döyüşləri bu ruhun qələbəsiydi..."

Zabit "Yaranmış coşqu da səngərə sığmayan döyüş əzmiylə, qələbə ruhuyla bağlıdı. Ali Baş Komandanın əmriylə başlayacaq döyüşlərdə əsgərlərimiz 2016-cı ilin Aprel döyüşlərinin qəhrəmanlarının davamçıları olacaqlar...", - deyir...

Payızın ilk günlərində bu qətiyyət zabitin, sonra əsgərlərin baxışlarının səmtini qarşı tərəfə yönəldir...

Səngərdə var səsimlə qışqırmaq istəyirəm: Sən qalib gələcəksən, Azərbaycan əsgəri!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Yeniyetmə şahmatçımız Aydın Süleymanlı dünya çempionu adını qazanıb



Azərbaycanın yeniyetmə şahmatçısı Aydın Süleymanlı dünya çempionu adını qazanıb.

Hindistanda 14, 16 və 18 yaşlı oğlanlar və qızlar arasında keçirilən şahmat üzrə dünya çempionatında 14 yaşlıların yarışına ilk turlardan liderlik edən A.Süleymanlı sonuncu turda Qazaxıstan təmsilçisi Sultan Amanzolu məğlubiyyətə uğradaraq çempion tituluna sahib olub.

## Usta cüdoçularımız dünya çempionatında 5 qızıl, 1 gümüş, 1 bürünc medal qazanıblar




Azərbaycanın veteran cüdoçuları Mərakeşdə keçirilən dünya çempionatında uğurla çıxış ediblər. Qırx doqquz ölkədən 1183 (1006 kişi, 177 qadın) idmançının mübarizə apardığı çempionata 15 cüdoçu ilə qatılan komandamız 5 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıb.

Yığma komandaya ilk qızıl medalı M-7 kateqoriyası üzrə Fərhad Rəcəbli (90 kq) qazandırıb. Bu, 60 yaşını Mərakeşdə qeyd edən usta cüdoçumuzun veteranlar arasında dünya çempionatları tarixində doqquzuncu qızıl medalıdır. Onu da xatırladaq ki, Fərhad Rəcəbli veteranlardan ibarət yığma komandamızın baş məşqçisi, həmçinin usta cüdoçular arasında Avropa çempionatının yeddiqat qalibidir.

Komandamızın aktivinə digər qızıl medalları Məmməd Məmmədov (M-1, 73 kq), Mübariz Cəfərov (M-4, 81 kq), Rəsul Səlimov (M-2, 90 kq) və Elxan Rəcəbli (M-2, 100 kq) yazdırıblar.

M-2 kateqoriyasında 66 kiloqram çəki dərəcəsində mübarizə aparan Vüqar Babayev isə təkcə finalda məğlub olaraq gümüş medala layiq görülüb. Veteranlar arasında ikiqat dünya çempionu Müşfiq Cəfərov (M-5, 73 kq) isə bu dəfə bürünc medalla kifayətlənib.

## Ruslan Lunyov güllə atıcılığı üzrə Avropa kubokunun qalibi olub



Fransanın Şatoru şəhərində güllə atıcılığı üzrə Avropa kuboku keçirilib.

Təmsilçimiz Ruslan Lunyov böyük çaplı tapançadan 25 metr məsafəyə atəşaçma yarışında bütün rəqiblərini üstələyərək qızıl medal qazanıb.

## Çində keçiriləcək Hərbçilərin 7-ci Dünya Oyunlarının atletlər kəndi istifadəyə verilib



Beynəlxalq Hərbi İdman Şurasının (CISM) Çinin Uxan şəhərində keçiriləcək Hərbçilərin 7-ci Dünya Oyunlarının atletlər kəndi istifadəyə verilib.

Xuancia gölünün kənarında yerləşən atletlər kəndi 558 min kvadratmetr sahəni əhatə edir. Kənddə idmançıların yaşamaları və məşq etmələri üçün müvafiq binalarla yanaşı, tibb mərkəzi, bank, mağazalar, fitnes zalı da fəaliyyət göstərəcək. Artıq Çin komandasının üzvləri atletlər kəndinə yerləşiblər.

Oktyabrın 18-dən 27-dək Çinin Xubey vilayətinin inzibati mərkəzi olan Uxan şəhərindəki 35 məkanda keçiriləcək Oyunlarda 100-dan çox ölkədən təxminən 10 min hərbçinin iştirak edəcəyi gözlənilir. Budəfəki Oyunlarda 27 növ üzrə 329 yarış keçiriləcək ki, bu da hərbçilərin ən böyük dünya oyunları olacaq. Stolüstü tennis ilk dəfə olaraq Oyunların proqramına daxil edilib. Gimnastika və tennis üzrə yarışlar isə nümayiş xarakteri daşıyacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 616
Nüsxə 3950